# İşğaldan azad olunmuş bölgələrdə əhalinin layiqli yaşayışı bərpa olunacaq



***Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il fevralın 2-də "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" barədə Sərəncam imzalayıb. Sənəd 2030-cu ilə qədərki dövr ərzində ölkəmizin bir sıra vacib sahələr üzrə inkişafını nəzərdə tutur. Əsas məqsəd həmin dövrdə Azərbaycanda "qüdrətli dövlət və yüksək rifah cəmiyyəti" yaratmaqdır.***

Sənəd dövlət qurumları qarşısında konkret vəzifələr qoyur: ölkədə uzunmüddətli dövrdə "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" (1-ci maddə), "Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət" (2-ci maddə), "Rəqabətqabiliyyətli insan kapitalı və müasir innovasiyalar məkanı" (3-cü maddə), "Təmiz ətraf mühit və "yaşıl artım" (5-ci maddə) yaradılmalı, "İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış" (4-cü maddə) təmin olunmalıdır.

Prezident İlham Əliyev, həmişə olduğu kimi, bu sənəddə də Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə diqqət və qayğını ön plana çəkib. Sərəncamda qeyd olunur ki, ölkəmizin ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail olub. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından məcburən köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və həmin ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaq.

Sənədə əsasən, regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizi bərpa olunacaq ki, bu da ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcək.

Eyni zamanda, işğaldan azad olunmuş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. İnsanların layiqli yaşayışının bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır. Bu prioritetin uğurla reallaşdırılması üçün iki məqsədə nail olunmalıdır: dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya.

Sənəddə birmənalı şəkildə vurğulanır ki, işğaldan azad olunmuş bölgələrdə əhalinin dayanıqlı məskunlaşması təmin edilməlidir. Bu məqsədlə həmin ərazilər cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevrilməli, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılmalıdır: "Hərtərəfli təhlükəsiz və əlverişli həyat şəraitinin yaradılması vətəndaşların əbədi məskunlaşması üçün böyük əhəmiyyət daşıyacaq. Bunun üçün yeni ərazilərdə layiqli yaşayış təmin edilməli, müasir infrastruktur qurulmalı, rahat həyat tərzi və müasir xidmətlərə əlçatanlıq olmalıdır. Regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması təmin edilməlidir".

Bununla yanaşı, azad olunmuş ərazilərin ölkənin iqtisadi və sosial simasında tarixi mövqeyi bərpa edilməlidir. Yeni bölgə iqtisadi fəaliyyətin aparıcı regionlarından birinə çevrilməli və yüksək inkişaf səviyyəsinə malik olmalıdır. Regionda təbii ehtiyatların bolluğu bu ərazilərə sərmayə cəlbinə imkan verəcək. Beləliklə, bölgənin ölkə üzrə iqtisadi fəaliyyətdə payı işğaldan əvvəlki vəziyyətə çatdırılmalıdır. Bu prosesdə də özəl təşəbbüslər hərtərəfli təşviq olunmalı, dövlət-özəl tərəfdaşlığı inkişaf etdirilməli, bunun üçün lazımi stimul yaradılmalıdır.

İnanırıq ki, bu sərəncamda nəzərdə tutulmuş bütün vəzifələr Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçiriləcək, məcburi köçkün vətəndaşlarımız dədə-baba yurdlarına qayıdaraq, müasir, komfortlu həyat sürəcəklər.

***Teymur ZEYNALOV,***
***iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent***

Xalq qəzeti 2021.- 5 fevral.- S.3.